2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2015-ci il tarixli 157 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 11 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsindən Xəlfəli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Cəfərov Habil Famil oğlu və digərlərinin 2015-ci il yanvarın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq tərtib edildiyindən və müəyyən edilmiş şikayətvermə müddətində verildiyindən ekspert qrupunun üzvü tərəfindən araşdırmaya qəbul edilmişdir.

Ərizəçi H.F.Cəfərovun müraciətinin araşdırılması zamanı 79 saylı İmişli seçki seçki dairəsinin 23, 24 və 25 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları üzvlərinin, Xəlfəli bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçilməmiş namizədlərin, həmin seçki məntəqələrində səsvermə günü müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən müəyyən edilmişdir ki, mübahisələndirilən seçki məntəqələrində səsvermə seçicilərin yüksək fəallığı ilə keçmiş, hər bir seçici aktiv seçki hüququnu hər hansı təsir olmadan reallaşdırmış, səsvermə prosesi əvvəldən sona qədər müxtəlif siyasi partiyaları təmsil edən və öz təşəbbüsü ilə müşahidə aparan müşahidəçilərin bilavasitə müşahidəsi ilə həyata keçirilmişdir.

Belə ki, 79 saylı İmişli seçki dairəsinin 23, 24 və 25 saylı məntəqə seçki komissiyasının üzvləri D.B.Abbasov, E.X.Hüseynov, T.M.Balakişiyev, S.K.Novruzov, F.B.Tarverdiyev, S.Z.Muradov, müşahidəçilər A.Ə.Məmmədov, İ.X.Şıxəliyev, R.Y.Məmmədov, V.B.Məsimov, S.Q.Həsənov, Xəlfəli bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin seçkilərdə kifayət qədər səs toplamamış S.Q.İmanov, L.F.Novruzova, E.F.Mikayılova və İ.S.İmanov izahatlarında bildirmişlər ki, seçkilər günü səsvermə prosesində hər hansı qanun pozuntusu müşahidə edilməmiş, səsvermənin gedişinə müdaxilə olunmamış, eyni zamanda hər bir seçici şəxsən səs vermiş, səslərin hesablanması qanunauyğun aparılmş, səsvermənin

nəticələrinə dair məntəqə seçki komissiyasının protokolu seçki məntəqəsində tərtib edilmişdir.

Ərizəçi tərəfindən seçkilər günü səsvermədə iştirak etməyən seçicilərin əvəzinə səs verilməsi, məntəqə seçki komissiyası sədrləri tərəfindən seçki bülletenlərində arzu etdikləri qeydə alınmış namizədlərin adlarının qarşısına işarələr qoyulması iddiaları əldə olunan izahatlara və digər sənədlərə əsasən öz təsdiqini tapmamışdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməli və 79 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının 2 yanvar 2015-ci il tarixli 01/02 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsindən Xəlfəli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Cəfərov Habil Famil oğlu və digərlərinin 10 yanvar 2015-ci il tarixli 157 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin seçki dairəsi dairə seçki komissiyasının 2 yanvar 2015-ci il tarixli 01/02 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov